Mayın 29-da Vergilər və Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan SABAH tələbələri arasında “Vergi” bilik yarışması keçirilib.

Tədbirdə çıxış edən vergilər nazirinin müşaviri Elçin Məmmədov iştirakçıları salamlayaraq onları Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyi münasibətilə təbrik edib. Bildirilib ki, maarifçiliyi öz fəaliyyətinin tərkib hissəsi sayan Cümhuriyyət hökumətinin 100 illik yubileyi münasibəti ilə belə bir bilik yarışmasının təşkil olunması çox sevindiricidir. Şərqin ilk Demokratik Respublika cəmi 23 ay yaşamasına baxmayaraq, elmin, təhsilin inkişafına böyük töhfələr verib. Cümhuriyyət dövrünün maarifçilik siyasəti müasir Azərbaycanda da uğurla davam etdirilir.

Qeyd edilib ki, Vergilər Nazirliyi sosial məsuliyyət strategiyası çərçivəsində cəmiyyətin maarifləndirilməsinə və bu baxımdan təhsil müəssisələri ilə əməkdaşlığa xüsusi diqqət yetirir. Ölkəmizdə işəgötürənlərlə təhsil alanlar arasında effektiv əlaqənin qurulması istiqamətində Vergilər Nazirliyi ilə Təhsil Nazirliyi və SABAH qrupları arasında səmərəli əməkdaşlıq qurulub. Bu əməkdaşlıq çərçivəsində keçirilən bilik yarışması da tələbələrə növbəti töhfədir.

Bilik yarışlarının tələbələrin tədris dövründə şəxsi və peşəkar inkişafında, təlim və peşə hazırlığı üzrə biliklərinin dərinləşməsində və möhkəmlənməsində mühüm rolu olduğu vurğulanıb.

Təhsil Naziriyinin SABAH qrupları İcra Komitəsinin rəhbəri Şahin Seyidzadə çıxış edərək bildirib ki, qrup tələbələri üçün mütəmadi olaraq müxtəlif tədris və tədrisdənkənar fəaliyyətlər təşkil edilir, onların inkişafına dəstək verilir. Ölkəmizin gənc insan kapitalının inkişafı üçün iki aparıcı dövlət qurumunun bu cür tədbirlər fonunda birgə əməkdaşlığı nümunəvi bir haldır və bunun davamlı olacağına inanırıq. Vergilər Nazirliyi ilə Təhsil Nazirliyi arasında bağlanmış əməkdaşlıq memorandumu çərçivəsində SABAH tələbələrinə vergi strukturlarına təcrübə, işə qəbul, birgə elmi tədqiqatların aparılması və digər bu kimi geniş imkanlar yaradılır.

Bilik yarışına ümumilikdə 10 ali təhsil müəssisəsini təmsil edən komandalar qatılıb. İlk 3 komanda yarışın qalibi olub. Bakı Dövlət Universiteti ni təmsil edən komanda 1-ci, Azəbaycan Dövlət Neft və Sənaye Universiteti ni təmsil edən komanda 2-ci, Azərbaycan Memarlıq və İnşaat Universitetini təmsil edən komanda isə 3-cü yeri tutub.

Qaliblərə sertifikat, qiymətli hədiyyələr və Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası hədiyyə olunub.